**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ADMİU-NUN TƏDRİS TEATRI: ƏNƏNƏ VƏ AVANQARD ARASINDA (1980-2010-cu illər)

İxtisas: 6212.01 – Teatr sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Böyükxanım Böyükağa qızı Talıbova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Teatrşünaslıq kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: əməkdar incəsənət xadimi,
sənətşünaslıq elmləri doktoru, professor
**Məryam Əli qızı Əlizadə**

Rəsmi opponentlər: sənətşünaslıq elmləri doktoru, professor,
AMEA-nın müxbir üzvü
**Rəna Azər qızı Məmmədova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Vəfa Rüstəm qızı Mühacirova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Mətanət Ağakişi qızı Nəsirova**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.35 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: əməkdar incəsənət xadimi,
sənətşünaslıq elmləri doktoru, professor
**İsrafil Ramazan oğlu İsrafilov**

______________

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Gülnarə Kərim qızı Hüseynova**

______________

Elmi seminarın sədri: əməkdar incəsənət xadimi,
pedaqogika üzrə fəlsəfə doktoru, professor
**Fikrət Əbdülhəmid oğlu Sultanov**

______________

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir təhsil sistemində tədris işinə kompetent yanaşma həlledici rol oynayır. Çağdaş dövrümüzdə belə yanaşma təhsil səviyyəsini əldə olunan biliklərin həcmi ilə deyil, öyrənilən elmi dəyərlərin əsasında professional məsələlərin həlli bacarığı ilə ölçür. Bu prinsiplə yanaşmanın əsasında, ilk növbədə təhsilin çevikliyi, nəzəriyyə ilə təcrübənin vəhdətinin səmərəliliyi, peşəkar vərdişlərə yiyələnmənin davamlılığı, multidissiplinarlıq kimi prinsiplər dayanır.

Müasir teatr təhsili, xüsusilə aktyor və rejissor sənəti fənnini tədris edən pedaqoqların və bu təhsilin sınaq meydanı funksiyası rolunu oynayan, semestrlər boyu tədris edilən nəzəri fikirlərin təcrübədə reallaşdırılmasına geniş imkanlar açan Tədris teatrının qarşısına mürəkkəb vəzifələr qoyur. Bir tərəfdən tələbənin yaradıcı şəxsiyyət kimi yetişdirilməsi, təxəyyülünün itiliyini daim mütəhərrik saxlaması, ehtiraslarını və fiziki gücünü bədiiliklə istifadə etmək vərdişlərinə yiyələnməsi mühüm bir tələb kimi qarşıda dayanır. Digər tərəfdən, aktyor fəaliyyətinin formalaşdırılmasına ayrılan vaxt məhdudlaşır, ixtisas fənlərinin tədris yükü azalır. Azaldıqca da onun yerini təcrübi sınaqlar, təhsil prosesində öyrəndiklərini sınaqdan çıxarıb reallaşdırmaq kimi imkanlar tutur. Paralel olaraq müasir dövrün tələblərindən doğan yeni-yeni nəzəri və təcrübü fənlər tələbə-aktyorun yükünü artırır. Bütün bu prosesdə isə təhsilalma müddəti, demək olar ki, dəyişmir. Ötən əsrin ilk illərində, yəni Azərbaycan Dövlət İncəsənət İnstitutunun Azərbaycan Dövlət İncəsənət Universiteti adlandığı illərdə aktyor təhsilinin müddəti artırılaraq 5 il oldu. Aktyorluq ixtisasında təhsil alan tələbələr 5 il oxuyur, nəticədə tam ali təhsilə yiyələnmiş sayılırdılar. Hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (bundan sonra – ADMİU) ölkənin təhsil qanunvericiliyinə uyğun olaraq, bakalavriat səviyyəsi üzrə tələbələr üçün 4 illik, magistratura səviyyəsi üçün ixtisasdan asılı olaraq 2 il və ya 1 il 6 ay müddətdə tədris prosesi təşkil edir və mütəxəssis hazırlığını həyata keçirir. Təbii ki, bakalavriat təhsil səviyyəsini bitirən bütün tələbələr magistratura təhsili almağa səy göstərmirlər. Bir qayda olaraq, bakalavr təhsili almış məzun

tələbələrin yalnız 15 faizi magistratura səviyyəsində təhsil alır və müvafiq elmi dərəcəyə yiyələnmiş olur.

Aydın məsələdir ki, aktyor hazırlığı işində magistratura təhsil səviyyəsinə ümid etmək olmaz. Magistratura təhsili dönəmində tələbələrin daha çox nəzəri bilikləri dərinləşdirilir, onlarda müəyyən peşəkar sənət vərdişləri formalaşdırılır. Milli və dünya teatr tarixinə, fəlsəfi və psixoloji qavramaya aid fənlərə üstünlük verilir. Tələbələr dünyada mövcud olan avanqard incəsənət izmlərinin estetik səciyyələrinə, psixoloji mahiyyətinə aid bilgilər alırlar. Bununla da tələbənin kamillik yoluna cəsarətlə, fundamental elmi bazayla qədəm qoymasına qapı açılır. Belə olan təqdirdə, tələbə-aktyor magistratura təhsilinə yiyələndikdən sonra nəzəriyyəyə daha çox meyl edir, mənimsədikləri fikirləri yaradıcılıqlarında elmi şəkildə təcrübədən keçirməyə daha inamla cəhd göstərirlər. Belə geniş meydanı əhatə etdiyinə görə bu təhsil səviyyəsi daha çox elmi təcrübənin davamlılığını artırır, doktorantura mərhələsinə keçid rolunu oynayır. Beləliklə də artıq müəyyən pedaqoji vərdişlərə yiyələnmiş magistrant məzunun gələcəkdə pedaqoji fəaliyyətlə məşğul ola bilməsi üçün təcrübə bazası yaradır. Tələbə-aktyorun seçdiyi sənətin peşəkarlıq vərdişlərinə yiyələnməsi, səhnə yaradıcılığının sirli incəliklərini mənimsəməsi prosesi təbii ki, bilavasitə bakalavriat təhsili prosesində baş tutur. Ona görə də ADMİU-da aktyor hazırlığı nəzərdə tutan tədris proqramı əsasən bakalavriat təhsil səviyyəsini əhatə edir.

Bəllidir ki, tədris müddətinin azalması və tədris proqramının ağırlaşdırılması teatr pedaqoqundan daha dəqiq və çevik metodika tələb edir. Bu problemi mövcud təhsil şərtləri daxilində həll etmək olduqca çətindir və çətin olduğu qədər də vacibdir, səmərəlidir, perspektivlidir. Ona görə də bu gün bədii pedaqogika sahəsində fəaliyyət göstərən müəllimlər, səriştəli sənətkar-pedaqoqlar verdikləri təhsilin səmərəliliyini artırmaq, nəzəriyyə ilə təcrübənin harmonik vəhdətinə nail olmaq üçün yeni-yeni mütərəqqi və daha səmərəli nəticələr verən sintetik forma və metodlar axtarmalı olurlar. Emosionallığı gücləndirən, psixoloji-fəlsəfi mahiyyət kəsb edən belə sintetik formaların və metodikanın axtarışı, ilk növbədə ADMİU-nun Tədris teatrının fəaliyyətində özünü açıq-aydın büruzə verir.

Həmçinin səmərəli təcrübi nəticələrin azadılmasına geniş imkanlar yaradır.

Təcrübə göstərir ki, təhsil prosesində tələbənin ilkin vacib şərtlərə yiyələnmiş aktyor kimi yetişdirilməsi işində ona yalnız "quru" nəzəri müddəaları əzbərlətdirməklə yüksək peşəkarlığa nail olmaq mümkün deyildir. Bu sahənin spesifik xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, ixtisasla bağlı əldə olunan hər bir bilik bilavasitə praktiki realizədə sınaqdan keçirilməli və tələbə-aktyor tərəfindən tam mənimsənilməlidir. K.S.Stanislavskinin "*bilmək bacarmaq deməkdir*"[1] maksiması bu şərtin mahiyyətini tam ifadə edir. Aktyor nəyisə bilirsə, deməli onu bacarmalıdır. Məsələn, əgər tələbə-aktyor əməli təhlil metoduna yiyələnibsə, demək ki, bu metodu istənilən rol üzərindəki iş prosesinə tətbiq etməyi bacarmalıdır. Görkəmli pedaqoq-alim K.D.Uşinski yazırdı: "*Hər hansı təəssüratın alınmasında bizim nə qədər çox hiss orqanımız iştirak edərsə, bu təəssüratlar yaddaşımızda o qədər möhkəm qalar, daha doğrusu, onları xatırlamaq rahat olar*"[2].

Mövzunun işlənilmə dərəcəsini araşdırmazdan əvvəl onu qeyd etmək lazımdır ki, təkcə teatrşünaslıq elmi deyil, bütövlükdə Azərbaycan humanitar elmi tarixində (sənətşünaslıq, mədəniyyətşünaslıq, filologiya, pedaqogika, kulturologiya, psixologiya və s.) ADMİU-nun Tədris teatrının fəaliyyəti, onun təhsil və tədris prosesindəki səmərəli nəticələr verən rolu, tələbələrin böyük səhnəyə hazırlığındakı dəyərli əhəmiyyəti haqqında təəssüf ki, proqram səviyyəsində işlənmiş xüsusi elmi-tədqiqat əsərinə rast gəlinmir. Tədris teatrı haqqında hətta məqalə, resenziya, publisistik yazılar belə məhdud saydadır və inkaredilməz faktdır ki, az-çox yazılmış məqalələrin, müxtəlif janrlı yazıların da əksəriyyəti elmi-nəzəri səviyyə etibarilə qənaətbəxş deyildir.

Bir təəssüf və rahatsızlıq doğuran faktı da qeyd etməliyik ki, araşdırma zamanı ADMİU-nun Tədris teatrının öz arxivinə də

---

[1] Станиславский, К.С. Собр. соч.: [в 8 томах] / К.С.Станиславский. - Москва: Искусство, - т. 2. – 1954. – 422 с., s.2

[2] Ушинский, К.Д. Собрание сочинений: [в 8 томах] / К.Д.Ушинский. – Москва: Издательство Академии Педагогических Наук, - т 1. – 1950, 776 с., s.21

müraciət etdik, lakin elmi-nəzəri prinsiplərə, konkret estetik qayəyə əsaslanan sanballı bir araşdırma tapa bilmədik. Bu səbəbdən araşdırmalarımız, əsasən yaşlı sənətkarların, teatr pedaqoqlarının, teatrşünasların xatirələrinə və Cəfər Cəfərov, Mehdi Məmmədov, İnqilab Kərimov, Mahmud Allahverdiyev, İlham Rəhimli, Məryəm Əlizadə, İsrafil İsrafilov, Timuçin Əfəndiyev, Ədalət Vəliyev, Aydın Talıbzadə kimi müəlliflərin teatr sənətinin müxtəlif problemlərinə həsr edilmiş tədqiqatlarına əsaslanır. O tədqiqatlara ki, onlarda müəyyən formalarda Tədris teatrının tamaşalarına yazılmış resenziyalar, yaxud burada tamaşalar hazırlamış rejissorların yaradıcılığına verilən elmi şərh müəyyən informatik məlumat güclərinə görə diqqəti cəlb edir. Lakin məsələ ondadır ki, Tədris teatrının inkişaf yolu xüsusi tədqiqat mövzusu kimi elmi-nəzəri təhlilə çəkilməyib. Bu baxımdan Tədris teatrının fəaliyyətinə aid elmi-nəzəri araşdırmaya İlham Rəhimlinin rejissor Vaqif İbrahimoğlunun yaradıcılığına həsr etdiyi "Zaman zaman içində"[3] kitabında rast gəlirik. Ancaq bu kitabda da yalnız İbrahimoğlunun hazırladığı tamaşalar təhlilə çəkilib. Onu qeyd etmək istəyirik ki, 1962-ci ildən günümüzə qədər müəyyən axtarışlarda büdrəmələri də olmuş Tədris teatrının sənət ocağı kimi fəaliyyəti fundamental tezislər əsasında araşdırılmayıb. Tədqiqat işi ilk elmi cəhd kimi daha çox diqqət çəkir və geniş müzakirəyə yeni yaradıcılıq meydanı açır.

Filologiya elmləri doktoru, professor Timuçin Əfəndiyevin ADMİU-nun 90 illik yubileyinə həsr olunmuş "Mədəniyyət və incəsənətimizin məbədgahı"[4] monoqrafiyası araşdırmamızın istiqamətləndirilməsi baxımından mühüm mənbə rolunu oynayıb. Lakin burada da konkret olaraq Tədris teatrının tarixinə, fəaliyyətinə toxunulmamış, yalnız onun bir tədris ocağı kimi yaranmağa başladığı vaxtdan müasir dövrədək fəaliyyəti və keçdiyi inkişaf mərhələləri yalnız informatik sadalama şəklində öz əksini tapmışdır. Kitabda bu təhsil ocağında çalışmış görkəmli pedaqoqların – aktyor, rejissor, rəssam, heykəltaraş, bəstəkar, teatrşünas, kinoşünas və mədəniyyət-

---

[3] Rəhimli, İ.Ə. Zaman zaman içində / İ.Ə.Rəhimli. – Bakı: Kitab aləmi, – 2010. – 512 s.
[4] Əfəndiyev, T.İ. Mədəniyyət və incəsənətimizin məbədgahı / T.İ.Əfəndiyev. – Bakı: ADMİU, - 2013. – 252 s.

şünasların yaradıcılığı, pedaqoji fəaliyyəti haqqında geniş məlumat verilmişdir. Həmin müəllifin "Mədəniyyətdə tarixilik və müasirlik"[5] adlı monoqrafiyası da tədqiqat zamanı köməyimizə çatmışdır. Sözügüdən monoqrafiyada Azərbaycan mədəniyyəti və incəsənətinin tarixi inkişaf mərhələləri və nəzəri problemləri mərhələli şəkildə araşdırılmış, incəsənətin müxtəlif sahələri olan teatr, kino, musiqi, memarlıq və təsviri sənət ayrı-ayrı fəsillər üzrə tədqiqata cəlb edilmişdir.

Mövzuyla bağlı araşdırma zamanı pedaqogika üzrə fəlsəfə doktoru, professor Fikrət Sultanovun "Azərbaycanda teatr təhsili"[6] adlı dərs vəsaiti ölkəmizdə institusional bədii təhsilin yaranması, inkişaf mərhələləri, onun təlim və tərbiyə sisteminin problemlərinin öyrənilməsi baxımından əvəzsiz mənbə rolunu oynayıb. Doğrudur, Tədris teatrının tarixi və fəaliyyəti sözügedən dərs vəsaitinin proqramına daxil deyildir. Lakin bununla belə, burada öz əksini tapan məsələlər dissertasiyamızın əhatə etdiyi problemlər dairəsinə qismən daxil olduğundan ondan faydalanmağı da məqsədəuyğun hesab etmişik. Çünki sözügedən dərs vəsaitində Azərbaycanda milli aktyor məktəbinin formalaşması, peşəkar ali teatr təhsilinin yaranması və inkişafı, strukturu, tədris-metodiki və tərbiyə işlərinin təşkili, tədris planları, proqramları, elmi-tədqiqat və metodiki işlər, teatr təhsilinin inkişaf etdirilməsinin aktual problemləri və s. araşdırılsa da burada qoyulan problemlər XX əsrin 80-ci illərinə qədərki mərhələni əhatə edir. Halbuki tədqiqatın zaman hüdudları 1980 – 2010-cu illər olaraq müəyyənləşdirilib.

Dissertasiya mövzusunun əhatə dairəsinin zaman hüdudlarının məhz 1980-2010-cu illərlə məhdudlaşdırılması müəyyən suallar doğura bilər. Biz bunu məqsədyönlü etmişik, bunun üçün müəyyən elmi-tədqiqat prinsiplərinə arxalanmışıq. Buna aydınlıq gətirməzdən əvvəl onu da deyək ki, "ADMİU-nun Tədris teatrı: ənənə və avanqard arasında (1980-2010-cu illər)" mövzusunda araşdırmalar

---

[5] Əfəndiyev, T.İ. Mədəniyyətdə tarixilik və müasirlik / T.İ.Əfəndiyev. – Bakı: Təhsil, - 2011. – 392 s.

[6] Sultanov, F.Ə. Azərbaycanda teatr təhsili. Dərslik / F.Ə.Sultanov. – Bakı: Azərbaycan Dövlət kitab Palatası, - 1995. – 114 s.

aparan zaman problemə hərtərəfli yanaşma baxımından sənətşünaslıq doktoru, professor İlham Rəhimlinin "Sənətdə keçən ömür", "Kəsişən paralellər", "Zaman zaman içində", sənətşünaslıq elmləri doktoru, professor Məryəm Əlizadənin "Dördüncü ölçünün rəngləri", "Elçinin teatr dünyası", sənətşünaslıq elmləri doktoru, professor İsrafil İsrafilovun "Adil İsgəndərovun teatrı", "Zaman. Rejissor. Poetika", "Tofiq Kazımovun rejissor dərsləri", "Mehdi Məmmədovun rejissor sənəti", sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Aydın Talıbzadənin "Mehdi müəmması və ya sənətdə konseptual hamletizm", "Faciə: janriçi mutasiyalar", sənətşünaslıq elmləri doktoru, professor Ədalət Vəliyevin "Əqidə, ruh və teatr", teatrşünas Yaqub Əlioğlunun "Rejissorlarla üz-üzə" monoqrafiyaları, teatr pedaqoqu, dosent Fikrət Məlikovun "Pedaqoq rejissorların tamaşa üzərində iş prosesi" dərs vəsaiti əhəmiyyətli mənbə rolunu oynayıb.

Bir faktı da təəssüflə qeyd etməliyik ki, Azərbaycan teatrşünaslığında bədii təhsilin, teatr sənətinin tədrisi prosesinin araşdırılması nə qədər zəifdirsə, rus teatrşünaslığında bu məsələyə xüsusi diqqət verilir, bu sahədə dəyərli işlər ərsəyə gəlir. Dissertasiya işinin elmi sanbalının artması naminə zaman-zaman rus sənətşünaslıq ədəbiyyatına da müraciət etmişik. O ki qaldı zaman hüdudlarının niyə 1980-2010-cu illərlə məhdudlaşdırılmasına, deməliyik ki, XX əsrin 80-ci illəri təkcə Azərbaycanda deyil, bütövlükdə dünyada gedən geosiyasi proseslərin dönüş nöqtəsi hesab olunur. Həmçinin bu proseslər təkcə teatr mədəniyyətində deyil, bütün sahələrdə özünü göstərdiyindən tədris prosesində də sözügedən dəyişikliklərin nəticələrini sezməmək mümkün deyildi. Bundan başqa, konkret olaraq Tədris teatrına gəldikdə, sözsüz ki, 1980-ci illəri Tədris teatrının məhsuldar fəaliyyət mərhələsinin başlanğıcı hesab etmək olar. Bu baxımdan düşünürük ki, dissertasiyada qoyulan problemin zaman hüdudlarının 1980-2010-cu illərlə qismən məhdudlaşdırılması daha səmərəli yanaşmadır. Digər tərəfdən bu zaman kəsiyində Tədris teatrı müəyyən ziddiyyətlərlə üzləşməklə yanaşı, mərhələ-mərhələ orijinal yaradıcılıq uğurları qazanıb ki, ona elmi-nəzəri qiymət vermək dissertasiyamızın başlıca qayəsi və ali məqsədidir.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyekti mövzunun adından göründüyü kimi Azərbaycanda XX əsrin 80-cı illərindən çağdaş dövrümüzə – 2010-cu illərə qədər gedən teatr tədrisi prosesi, bu prosesin yaranması, formalaşması və keçdiyi mürəkkəb inkişaf mərhələləridir. Tədqiqatın predmetini, məğzini, elmi qayəsini isə ADMİU-nun Tədris teatrının fəaliyyət prinsiplərinin əsas səciyyələri, müasir təhsil sistemindəki və teatr mədəniyyətinin zənginləşməsindəki rolu, onun repertuar seçimi, forma və məzmun axtarışları, yeni janr estetikasına cəsarətli müraciət cəhdlərinin elmi yükü təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın başlıca məqsədi ADMİU-nun Tədris teatrının fəaliyyətini ənənə ilə avanqardın vəhdətində təhlilə cəlb etmək, tələbələrin böyük səhnəyə doğru keçdiyi yolda tədris prosesinin mərhələlərini araşdırmaqdır. Tədqiqatın məqsədi, həmçinin Azərbaycanda teatr təhsilinin tarixini araşdırmaq zəminində ADMİU-nun Tədris teatrının inkişaf mərhələlərinə elmi-nəzəri yanaşmaq, estetik mahiyyətinin özəlliklərini açmaq, onun bədii dəyərinə gur işıq salmaqdır. Sadalanan bu məqsədlərin realizəsi üçün aşağıdakı elmi vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Tədris teatrının inkişafının mürəkkəb, bəzən təzadlı tarixi dönəmlərini sırf elmi-nəzəri və bədii-estetik səciyyələr, fəlsəfi-psixoloji aspektlər zəminində araşdırmaq;
- Tədris teatrının tədqiqata cəlb etdiyimiz dövrünün tələbələri peşəkar hazırlıqlarının təcrübi əsaslı bazası olmaqla yanaşı, studiya və laboratoriya variantı kimi tədqiqata cəlb etmək;
- dünyanın sürətlə qloballaşmağa doğru getdiyi axtarışlar yolunda eksperimentlər, yeni-yeni elmi-nəzəri tezislər zəminində təhsil sistemi, incəsənət və o cümlədən teatr mədəniyyətində ADMİU-nun Tədris teatrının rolunun teatrşünaslıq elminin fəlsəfi-nəzəri araşdırma kontekstində təhlilini vermək;
- ADMİU-nun Tədris teatrının həm ümumi tendensiyalarını təyin etmək, həm də müxtəlif avanqard teatr estetikasına əsaslanan novatorluq cəsarətinin mahiyyətini, dəyərini qiymətləndirmək və bütün bunları elmi-pedaqoji prinsiplərə, sənət estetikasına əsaslanan problemlər müstəvisində tədqiqata cəlb etmək;

- ADMİU-nun Tədris teatrında hazırlanmış tamaşalar əsasında yeni yaradıcılıq axtarışlarının istiqamətlərini nəzərdən keçirmək, forma, məzmun, janr axtarışlarının, mövzu rəngarəngliyinin, orijinal ifadə vasitələrindən cəsarətli istifadənin elmi-təcrübi əsaslarını qiymətləndirməyə xüsusi dəyərlər prizmasından yanaşmaq.

**Tədqiqatın metodları.** Dissertasiyada araşdırılan mövzu Azərbaycanda teatrın və teatr təhsilinin tarixi təcrübəsi, müasir teatrşünaslıq, mədəniyyətşünaslıq, kulturologiya, estetika, psixologiya və pedaqogika elmlərinin nailiyyətlərinə istinadən tədqiq olunmuşdur. Araşdırmalardan, aparılan tədqiqatlardan hasil olan nəticənin mayasında bədii mədəniyyətin bütövlüyü prinsipi əsas götürülmüşdür. Tədqiqatın başlıca metodoloji əsasını tarixi-xronoloji təhlil metodu təşkil edir. Tədris teatrının inkişaf tarixi araşdırılarkən şübhəsiz ki, tarixi təhlil metoduna da xüsusi yer verilmişdir. Həmçinin tədqiqat zamanı müqayisəli təhlil metodunun imkanlarından da istifadə edilmişdir. Forma-məzmun xronotopu, janr axtarışlarında yeni estetik səciyyələrə psixoloji yanaşma prinsipləri, klassik əsərlərin çağdaş ruhda səhnə təfsiri kimi məsələlər tədqiqatın metodlarının fundamental özülünü daha da gücləndirib.

Tədqiqat işində görkəmli fikir sahiblərindən K.Stanislavski, V.Nemiroviç-Dançenko, M.Knebel, D.Uşinski, G.Tovstonoqov, N.Qorçakov, P.Bruk, Y.Qrotovski, M.Sosnova, V.Fliştinski, Y.Zavadski, V.Komissarjevski, V.Toporkov, M.Ulyanov, E.Belyutin, N.Moleva, O.Naumova, T.Zlotnikova, V.Konev, V.Konetskaya, N.Akimov, N.Krımova, T.Rubina, D.Kardovski, M.Blyaxer, J.Delor, Y.Vissema, M.Eger kimi müəlliflərin əsərlərinə müraciət olunmuş, həm Azərbaycanda teatr təhsilinin metodikasından, həm rus teatr məktəbi ənənələrindən, həm də dünyada mövcud olan teatr təhsili təcrübəsindən istifadə edilmişdir. Bu zaman dissertasiyada qoyulan problemin həllinə, əldə olunan qənaət və nəticələrin təsdiqinə yararlı və dəyərli mülahizələr sitat şəklində tədqiqata daxil edilmişdir. Yeri gəldikcə müəyyən mülahizələrə tənqidi prizmadan yanaşılmış, müəlliflərlə elmi polemika aparılmışdır. Zənnimizcə, belə yanaşma tədqiqatın metodunun reallıq cazibəsini və dəyərini artırmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində aşağıdakı əsas müddəalar müdafiəyə çıxarılır:

- 1962-ci ildə Azərbaycan Dövlət Teatr İnstitunun nəzdində yaradılan Tədris teatrının səmərəli fəaliyyətə başlaması təhsil ocağının respublikadakı ümumi teatr prosesinə qoşulmasına təkanverici zəmin yaradır, əhəmiyyətli funksiya daşıyırdı. Eyni zamanda bu qurumun yaranması dövrün bədii-estetik tələblərindən irəli gəlmişdi və ümumittifaq miqyasında gedən tələbə yaradıcılığının yeni peşəkar səviyyəyə qoşulması prosesini gücləndirirdi;
- Tədris teatrı çağdaş dövrdəki fəaliyyəti ilə ənənəni davam etdirməklə yanaşı, avanqard səhnə sənəti prosesinin estetik tələblərinə peşəkarcasına cavab verə bilmək cəhdində uğurlu axtarışlar aparmağı öz fəaliyyətinin əsas qayəsi kimi müəyyənləşdirib;
- Tədris teatrının fəaliyyəti tələbələrin nəzəri biliklərə yiyələnmələri ilə paralel olaraq canlı şəkildə peşəkarlıq məsələlərinə, sənətkarlıq xüsusiyyətlərinə yiyələnmə prosesinə güclü bədii-emosional təkan verir;
- tələbələrin ayrı-ayrılıqda fərdi yaradıcılıq qabiliyyət və bacarığını göstərməyə meydan açmaqla yanaşı, onların istedadlarının imkan və dərəcəsinin mahiyyətini də üzə çıxarır. Nəticədə hər bir tələbədə kollektiv yaradıcılıq prosesinin estetik səciyyələrinin qavranılmasını sürətləndirir, cilalayır və onu yaradıcı peşəkarlığa doğru düzgün istiqamətləndirir;
- laboratoriya xüsusiyyətinə malik olan Tədris teatrı tələbənin auditoriyada mənimsədikləri nəzəri biliklərin təcrübi sınaqlarına meydan açır, tələbə-aktyorun böyük səhnə üçün peşəkar kadr kimi yetişdirilməsi funksiyasını reallaşdırmaq imkanlarına malikdir;
- Tədris teatrı tələbə-aktyorun nəzəri biliklərini ilk növbədə konkret yaradıcılıq prosesinə tətbiq edib sınaqdan çıxarmaq vərdişlərini formalaşdırır. Təcrübi sınaq meydanı kimi tələbənin mənimsədiyi bilikləri əyani şəkildə sınaqdan çıxarıb formalaşdırmaq, peşəkarlığın sirlərini mənimsəmək vərdişlərinə güclü və real, qaynar və dinamik yaradıcılıq təkanı verir;
- tələbə-aktyoru tamaşaçı ilə emosional, sirayətedici yaradıcılıq ünsiyyətə hazırlamaq üçün Tədris teatrı əvəzsiz təcrübi-sınaq mərhələsidir. Çünki aktyor üçün vacib olan peşə vərdişlərindən

biri də tamaşaçı salonunu duymaq, öz oyunu ilə onlara emosional təsir göstərmək, canlı şəkildə səmərəli ünsiyyətin nəzəri mexanizmlərini peşəkarcasına təcrübədə reallaşdırmaq bacarığına yiyələnməkdir;

- bir sözlə, Tədris teatrının səhnəsi peşəkar teatra keçidin ən etibarlı yaradıcılıq körpüsüdür.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycanda teatr təhsilinin yaranması, metod və metodologiyası, konkret olaraq ADMİU-nun Tədris teatrının formalaşması, inkişaf tarixi və fəaliyyət prioritetləri, bugünə qədər milli teatrşünaslıq elmi tərəfindən sistemli şəkildə tədqiqata cəlb olunmamışdır. Bu səbəbdən, dissertasiyada qoyulan problem orijinaldır, yenidir və humanitar elmi düşüncənin tamlığından ötrü aktual mahiyyət kəsb edir:

- tədqiqatın elmi yeniliyi, ilk növbədə ondadır ki, Azərbaycanda teatr təhsilinin yaranması və onun formalaşmasının mərhələləri, elmi əsaslar üzərində formalaşması məhz bu dissertasiya işində kompleks şəkildə öyrənilir;
- dissertasiyada teatr təhsilinin institusional mədəniyyətin faktı kimi keçdiyi inkişaf mərhələlərinin bədii-estetik mahiyyəti, uğurlarının elmi-nəzəri əsasları illərin ardıcıllığı ilə araşdırılır;
- tədqiqat işinin elmi yeniliyi həm də ondadır ki, ADMİU-nun Tədris teatrının fəaliyyəti elmi-nəzri baxım bucağından ilk dəfə məhz bu tədqiqatda təhlil olunur;
- tədqiqat işində yeni nəzəri fikirlərin səsləndirilməsinə xüsusi diqqət yetirilib. Səhnə sənəti təhsilinə aid elmi-nəzəri fikirlər real elmi təsdiqlərlə irəli sürülür, həmçinin Azərbaycanda mövcud teatr təhsili ilə bağlı dünya təcrübəsindən nümunələrin mənimsəmə problemləri təhlil və tədqiqə çəkilir;
- milli teatrşünaslıq tədqiqatlarında müxtəlif şəkillərdə tədris prosesinə toxunulub. Ancaq ADMİU-nun Tədris teatrında aparılmış 62 illik yaradıcılıq axtarışlarının 30 ili ilk dəfə məhz bu dissertasiya işində fundamental şəkildə, elmi-nəzəri əsaslarla tədqiq və təhlil edilir;
- müasir təhsil sistemində və müstəqillik dövründə teatr mədəniyyətində Tədris teatrının əhəmiyyətli rolu əsaslı şəkildə araşdırılır; səhnə sənətinin fəaliyyəti ənənə ilə avanqardın vəhdə-

tində, peşəkarlığı keçidə geniş qapı açan studiya və laboratoriya funksiyasını daşıyan yaradıcılıq qurumu kimi tədqiqata cəlb edilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** "ADMİU-nun Tədris teatrı: ənənə və avanqard arasında (1980-2010-ci illər)" adlı dissertasiya işi Azərbaycanda teatr təhsilinin yaranması və inkişaf mərhələləri problemini ilk dəfə sistemli şəkildə araşdıran tədqiqat əsəri kimi nəzəri-təcrübi əhəmiyyətə malikdir. Həmçinin tədqiqat işi müasir teatr təhsilinin metod və metodologiyası, eləcə də prioritet istiqamətlərinin öyrənilməsi baxımından da elmi əhəmiyyət kəsb edir.

Tədqiqat işi ADMİU-da Sənətşünaslıq (teatrşünaslıq), Aktyor sənəti və Rejissorluq ixtisasları üzrə təhsil alan tələbələr üçün, eyni zamanda bu sahələr və mədəni-maarif işinin təşkili üzrə digər ali təhsil müəssisələri və kolleclərin tələbələri üçün dərs vəsaiti kimi istifadə edilə bilər. Doktorantların, dissertantların da gələcək tədqiqatlar zamanı dissertasiyanın müddəaları və əldə edilən qənaətlərindən bəhrələnməsi mümkündür.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın nəticələri və əsas müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının reyestrində olan yerli və xarici nəşrlərdə dərc edilmişdir. Eyni zamanda tədqiqatın bir sıra vacib qənaətləri, müxtəlif respublika və beynəlxalq səviyyəli elmi konfranslarda səsləndirilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Teatrşünaslıq kafedrasında yerinə yetirilmiş və müzakirə olunmuşdur.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, hər birində iki paraqraf olmaqla iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat işinin "Giriş" hissəsi 21.961 işarə, "ADMİU-nun Tədris teatrının təşəkkül və inkişafının tarixi dönəmləri" adlı I fəslin "ADMİU-nun Tədris teatrı tarixi zaman müstəvisində" adlı birinci paraqrafı 58.125 və "ADMİU-nun Tədris teatrı studiya və laboratoriya variantı kimi" adlı ikinci paraqrafı 53.298, "Müasir teatr təhsili sistemində və teatr

mədəniyyətində ADMİU-nun Tədris teatrının rolu" adlı II fəslin "ADMİU-nun Tədris teatrının repertuar siyasətində ümumi tendensiyalar" adlı birinci paraqrafı 56.091 və "ADMİU-nun Tədris teatrında yeni yaradıcılıq axtarışlarının istiqamətləri" adlı ikinci paraqrafı 53.982 işarə, "Nəticə" hissəsi 16.869 işarə olmaqla, ümumi həcmi 260.326 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığından, milli sənətşünaslıq elmi tərəfindən işlənilmə dərəcəsindən bəhs edilir, tədqiqatın elmi yeniliyi, obyekti və predmeti, həmçinin məqsəd və vəzifələri müəyyənləşdirilir. Mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqat işinin məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan müddəaları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, yerinə yetirildiyi təşkilat, dissertasiyanın struktur bölmələrinin və dissertasiyanın ümumi həcmi haqqında məlumat verilir.

Dissertasiyanın I fəsli **"ADMİU-nun Tədris teatrının təşəkkül və inkişafının tarixi dönəmləri"** adlanır. Bu fəsildə qoyulan problem iki paraqrafda əhatə olunur. I fəslin **"ADMİU-nun Tədris teatrı tarixi zaman müstəvisində"** adlı ilk paraqrafında qeyd olunur ki, Azərbaycanda teatr təhsilinin tarixi 1923-cü ildən hesablanır. Həmin ildə Azərbaycan Maarif Komissarlığının qərarı ilə Bakı Teatr Məktəbi yaradılıb. Məktəbin yaradılmasının təşəbbüskarı İtaliyada və Ukraynada təhsil almış ilk peşəkar opera müğənnisi, SSRİ Xalq artisti Şövkət Məmmədova olub. Azərbaycanın görkəmli maarifçi ziyalıları, böyük sənətkarları Teatr Məktəbinin ilkin təşəkkül dönəmlərində var gücləri ilə bu təhsil ocağına dəstək veriblər. Məktəbin fəaliyyətə başladığı dövrdən burada Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Hüseyn Cavid, Əli Sultanlı, Abbasmirzə Şərifzadə, Mirseyfəddin Kirmanşahlı, Aleksandr Tuqanov, Rza Sarabski, Hacıağa Abbasov, Fatma Qədri, Əli Sultanov, Turan Cavid və başqa sənətkarlar pedaqoji fəaliyyətlə məşğul olublar.

Milli dramaturgiyanın banisi M.F.Axundzadənin adını daşıyan Teatr Məktəbi zaman keçdikcə daha da təkmilləşərək peşəkar sənət ocağına çevrilib. 1945-ci ildə Teatr Məktəbinin bazasında Azərbaycan Dövlət Teatr İnstitutunun yaradılması da bu inkişafın məntiqi nəticəsi idi. Teatr İnstitutunda Aleksandr Tuqanov, Moskvada ali təhsil almış Ədil İsgəndərov, Mehdi Məmmədov, Məhərrəm Haşımov, eləcə də zəngin səhnə təcrübəsi qazanmış Kazım Ziya, İsmayıl Dağıstanlı, Müxlis Cənizadə, filoloq-alimlər Mikayıl Rəfili, Əli Sultanlı, Fuad Qasımzadə, Əkbər Ağayev kimi sənətkarlar və alimlər pedaqoji fəaliyyətlə məşğul olublar.

1954-cü ildən SSRİ Xalq artisti Mirzağa Əliyevin adını daşıyan bu ali təhsil ocağında 1960-1990-cı illərdə yuxarıda adları çəkilən sənətkarlarla yanaşı təhsil prosesinə yeni sənət adamları da qoşuldular. Bunların sırasında Cəfər Cəfərov, Tofiq Kazımov, Zəfər Nemətov, Nəsir Sadıqzadə, Əli Zeynalov, Müxlis Cənizadə, Şəfiqə Məmmədova, Həsən Turabov, Kamal Xudaverdiyev, Ələmdar Quluzadə, Əşrəf Quliyev, Nəsir Sadıqzadə, teatrşünaslar Cabir Səfərov, Mahmud Allahverdiyev, Rahib Hüseynov, Adilə İsmayılova, İnqilab Kərimov kimi təcrübəli pedaqoqlar, həmçinin sənətdə yeni yaradıcılıq uğurları qazanmış və müəllimllik fəaliyyəti göstərən Həsən Əbluc, Mikayıl Mirzə, Könül Axundova, Ənvər Vəliyev kimi müəllimlər çalışırdılar.

Azərbaycan Dövlət Teatr İnstitutu Rusiyanın teatr institutlarını nümunə kimi götürmüşdü və təhsili bu ali məktəblərin tədris proqramına uyğun qurmağa çalışırdı. Sözsüz ki, o dövrdə digər Ümumittifaq teatr məktəbləri kimi Azərbaycan Dövlət Teatr İnstitutu üçün də əsas nümunə QİTİS (Rusiya Dövlət Teatr Sənəti İnstitutu) idi. Azərbaycan Dövlət Teatr İnstitutu teatr təhsili işinin qurulması və daha da təkmilləşdirilməsi üçün QİTİS-in təcrübəsindən bəhrələnirdi. Elə Tədris teatrının yaradılması da bu istiqamətdə aparılan işlərin nəticəsi idi. Qeyd edək ki, QİTİS-in nəzdində Tədris teatrı 1958-ci ildə yaradılmışdı. Bu mənada, Azərbaycanda Tədris teatrının yaranmasını ümumittifaq miqyasda gedən proseslərə refleksiya kimi də dəyərləndirmək mümkündür. Zaman keçdikcə tədris teatrının yaradılması böyük zərurətə, hətta deyərdik ki, zamanın tələbinə çevrilirdi. Belə də demək mümkündür ki, ADMİU-

nun Tədris teatrını zamanın özü yaratmışdı. Nəhayət ki, uzun müzakirələrdən sonra 1962-ci ilin noyabr ayında Tədris teatrı yaradıldı. Yarandığı gündən etibarən, Tədris teatrı laboratoriya xüsusiyyətinə malik olaraq peşəkar səhnə üçün hazırlıq funksiyasını öz üzərinə götürdü.

ADMİU-nun Tədris teatrı Bakının mərkəzindəki kitab pasajının yanında yerləşən ikimərtəbəli binanın ikinci mərtəbəsində fəaliyyət göstərirdi. Teatrın tamaşa zalı cəmi 80 nəfərlik tamaşaçı tutumuna malik idi. Səhnə o qədər də böyük deyildi. Sonralar üç dəfə ünvanını dəyişən Tədris Teatrı hazırda Yasamal rayonunda, H.Cavid prospekti 556/57 ünvanında yerləşir.

Yarım əsrlik mövcudluq dönəmində ADMİU-nun Tədris teatrı zəngin və şərəfli bir inkişaf yolu keçib.

Tədris teatrında müxtəlif dövrlərdə Rza Təhmasib, Ədil İsgəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov, Nəsir Sadıqzadə, Böyükağa Kazımov, Fuad və Zəminə Hacıyevlər, Faiq Zöhrabov, Həsən Əbluc, Fikrət Sultanov, Cənnət Səlimova, Azər Paşa Nemətov, Vaqif İbrahimoğlu, Firudin Məhərrəmov, Mehriban Ələkbərzadə, Bəhram Osmanov, Fikrət Məlikov, Gümrah Ömər və başqa rejissorlar tamaşalar hazırlayıblar.

1968-1969-cu il teatr mövsümündən etibarən ADMİU-nun Tədris teatrında rəsmi maaşla aktyor ştatı açıldı. Müxtəlif illərdə Tədris teatrının ştatında tələbə aktyorların arasında gələcəyin xalq və əməkdar atristləri, əməkdar incəsənət xadimləri, o cümlədən Rasim Balayev, Əliabbas Qədirov, Mikayıl Mirzə, Yaşar Nuriyev, Zərnigar Ağakişiyeva, İlham Namiq Kamal, Nurəddin Mehdixanlı, Bəsti Cəfərova, Telman Adıgözəlov, Fəxrəddin Manafov, Nuriyyə Əhmədova, Məmmədsəfa Qasımov, Ramiz Məmmədov, Bəxtiyar Xanızadə, Xalidə Qasımova, Qəmər Məmmədova, Rəhman Əlizadə, Hicran Nəsirova, Mətanət Ağakişiyeva, Mirzə Ağabəyli, Pərviz Bağırov, Məzahir Cəlilov, Tofiq Hüseynov, Yadigar Muradov və neçə-neçə istedadlı gənclər vardı.

ADMİU-nun bazasında fəaliyyət göstərdiyi üçün Tədris teatrının inkişafı bir qayda olaraq, təhsil ocağında çalışan pedaqoqların yaradıcılıq potensialı ilə əlaqəli olub. Tədris teatrının yaranmasında, təşəkkülündə və bugünkü səviyyəyə çatmasında adla-

rını sadaladığımız ustad pedaqoqların, eləcə də müxtəlif fənlərdən dərs deyən onlarla müəllimin böyük xidmətləri olub.

Təhsil ocağında yaranmış ənənələri ləyaqətlə davam etdirməyə ötən əsrin sonlarında və Azərbaycanın müstəqilliyə yenidən qovuşduğu dövrdən sonrakı mərhələdə rejissorlardan xalq artistləri Ağakişi Kazımov, Cənnət Səlimova, Azər Paşa Nemətov, əməkdar incəsənət xadimləri Fikrət Sultanov, Vaqif İbrahimoğlu, Hafiz Quliyev, Bəhram Osmanov, aktyor sənətindən dərs deyən xalq artistləri Kamal Xudaverdiyev, Bəsti Cəfərova, Firəngiz Mütəllimovanın səmərəli pedaqoji fəaliyyəti Tədris teatrının inkişafına böyük töhfələr verib.

I fəslin "**ADMİU-nun Tədris teatrı studiya və laboratoriya variantı kimi**" adlı ikinci paraqrafında ADMİU-nun Tədris teatrının tarixinin ən parlaq dövrü olan XX əsrin 80-ci illəri təhlil edilir. Həmin dövrdə Tədris teatrının inkişafının, əsl studiya və laboratoriyaya çevrilməsinin bədii-estetik, sosial-mədəni səbəbləri araşdırılır.

Tədris teatrına studiya və laboratoriya variantı kimi yanaşdıqda 1979 – 1982-ci illəri əhatə edən zaman kəsimini xüsusi vurğulamaq lazımdır.

Sözügüdən dövrdə Tədris teatrı təyinatına uyğun olaraq, yeni teatr tendensiyalarının, fərqli ideyaların aprobasiyadan keçdiyi studiyaya, yaradıcılıq laboratoriyasına çevrildi. Teatr özünün fəaliyyət vüsəti ilə ölkənin teatr prosesində yer alan bir sənət ocağı olaraq ictimai fikirdə yer almağa başladı. Bu teatrda sənədləşmə işləri qaydasına düşdü, arxivi yaradıldı, idarəetmə baxımından bir sıra yeni, müasir üsullar tətbiq edildi. Bu zaman təbii ki, teatrın uğurlarında texniki, inzibati yeniliklər çox yaradıcı yeniliklər başlıca yer tuturdu. Düşüncə etibarilə avanqard teatra meyilli olan, yeni teatr ideyalarını Azərbaycan teatr məkanına gətirməyə çalışan görkəmli rejissor Vaqif İbrahimoğlu yaradıcılıq işinə rəhbərlik etdiyi bu teatrı əsl teatral ideyalar poliqonuna çevirdi.

Teatrda yaradılan yeni yaradıcılıq atmosferi, fərqli iş prinsipi, yeni repertuar və yaradıcılığa qoyulan peşəkar tələblər çox qısa müddət ərzində bu teatrın simasını dəyişdirdi və ona yüksək imic qazandırdı. Demək olar ki, ölkənin teatr həyatında staqnassiya (durğunluq) yaşandığı bir dövrdə V.İbrahimoğlu Tədris teatrında bir-birinin ardınca hazırladığı maraqlı tamaşalarla, bu tamaşalarda aktuallaş-

dırdığı ideyalarla teatrı əsl estetik fikir mərkəzinə çevirə bildi. “Zəncirbənd”, “Var olsun günəş!”, “Diqqət, başlayıram!”, “Yaylağa gedir”, “Mən Dədə Qorqud”, “Təskinlik verməyi unutmayın”, “Komsomol”, “Məcnun demə...” tamaşaları Tədris teatrının tarixinin ən parlaq səhifələrini təşkil edirdi.

Bu tamaşaların təcəssümü prosesində V.İbrahimoğlu Azərbaycan milli teatr ənənələrinin çağdaş dövrün səhnə estetikası ilə sintezinə, bilavasitə milli oyun üslubunun müxtəlif ədəbi materialda ifadə prinsiplərinin axtarışlarına səy göstərirdi.

Diqqət yetirsək, Məhəmməd Füzuli, Antuan de Sent-Ekzüperi, Cəfər Cabbarlı, Əbdürrəhim bəy Haqverdiyev, Səməd Vurğun, Anar kimi müəlliflərin, həmçinin türkdilli xalqların şərikli ölməz Kitabi Dədə Qorqud eposunun səhnə dilində, hər birinin fərqli aktyor ifaçılığı prinsipləri ilə təqdimatında rejissuranın axtarış səyləri və tapıntıları tamaşaçını heyrətləndirirdi. V.İbrahimoğlu karnaval estetikasına əsaslanan aktyor oyununda milli gülüş mədəniyyətimizin təkrarsız estetik mahiyyətini səhnə-səhnə açır, maraqlı aktyor oyunları ilə diqqəti cəlb edirdi.

Bu istər rejissor yozumunu, istərsə də ifa mədəniyyəti baxımdan “tazə-tər” (Cəfər Cəfərov) bir üslub, fərqli estetik baxış və sənət mövqeyinin konkret bir səhnədə Tədris teatrının imkanları çərçivəsində bəyan edilməsi idi.

Bu gün tarixi zaman məsafəsindən həmin dövrə nəzər salarkən Tədris teatrının məhz laboratoriya xarakteri daşıdığını, teatr təhsili üçün müstəsna əhəmiyyət kəsb etdiyini daha aydın görmək olar.

Pedaqoq-rejissor, professor V.İbrahimoğlunun fəaliyyəti sayəsində Tədris teatrında elə bir yaradıcılıq ab-havası, laboratoriya mühiti yaranmışdı ki, rejissor Azərbaycan Dövlət Musiqili Komediya Teatrına (indiki Azərbaycan Dövlət Akademik Musiqili Teatrı) bədii rəhbər təyin edildikdən sonra da burada studiya ənənəsi davam edirdi. Həmin ənənələrin yaşadılmasında və Tədris teatrının yaradıcılıq laboratoriyası kimi öz funksionallığını qoruyub saxlamasında B.Osmanov, M.Ələkbərzadə və F.Məhərrəmovun tamaşalarının böyük rolu olmuşdur.

Dissertasiyanın **“Müasir teatr təhsili sistemində və teatr mədəniyyətində ADMİU-nun Tədris teatrının rolu”** adlanan II

fəsli iki paraqrafdan ibarətdir. II fəslin **"ADMİU-nun Tədris teatrının repertuar siyasətində ümumi tendensiyalar"** adlı birinci paraqrafında qeyd olunur ki, Tədris teatrının repertuar seçimində birinci dərəcəli məsələ tələbələrin yaradıcı fərdiyyətinin üzə çıxarılması və kollektiv yaradıcılığın təşkilidir.

Maraqlı pyes tapmaq teatr tədrisi zamanı hələ uğurlu seçim demək deyil. Kurs və buraxılış tamaşaları üçün ədəbi əsasın seçilməsi olduqca mürəkkəb və məsuliyyətli bir işdir. Bu zaman seçilmiş ədəbi əsasın (pyesin, yaxud səhnələşdirmənin) bədii keyfiyyətləri heç də həmişə əsas meyar ola bilmir. Yəni bu və ya digər pyes aktual mövzulu dramaturji material kimi böyük dəyər kəsb etməsinə baxmayaraq, kurs, yaxud buraxılış tamaşası üçün yararlı olmaya bilər. Kurs və buraxılış tamaşalarının seçilməsi zamanı mühüm əhəmiyyət kəsb edən meyarları şərti olaraq obyektiv və subyektiv olmaqla iki qrupa ayırmaq mümkündür. Obyektiv meyarlar dedikdə dövr, tədris işinin həyata keçirildiyi ali təhsil müəssisəsi, universitetin, yaxud sənət məktəbinin təhsil strategiyası, təsdiqlənmiş tədris proqramı və s. nəzərdə tutulur. Subyektiv meyarlar isə pedaqoqun şəxsiyyəti, qrupun ümumi səviyyəsi, tələbələrin yaş xüsusiyyətləri, fərdi bacarıqları və s. məsələlərdən ibarətdir.

Kurs və buraxılış tamaşalarının qurulmasında əsas məqsəd yalnız maraqlı tamaşa hazırlamaq deyil. Doğrudur, tələbələrin hazırladıqları, yaxud onların ifasında nümayiş olunan tamaşaların bədii keyfiyyəti əhəmiyyətlidir. Ancaq teatr pedaqogikasında proses nəticə qədər, bəlkə ondan da artıq dəyərə malikdir.

Tədris teatrı bədii təhsil müəssisəsində həm də tədris prosesinin indikatoru (göstəricisi) kimi çıxış edir. Daha dəqiq desək, hər semestrin sonunda hazırlanan və Tədris teatrında göstərilən etüd parça, yaxud tamaşa böyüdücü şüşə kimi semestr boyu görülən işlərin, aparılan tədris prosesinin keyfiyyətini büruzə verir.

Teatr təhsilində etüdlər, kurs və buraxılış tamaşaları üçün ədəbi əsasın seçilməsi, eləcə də pyes və rol üzərində iş zamanı ilk növbədə tələbələrin peşəkar kadr kimi yetişdirilməsi məqsədi qarşıya qoyulmalıdır. Bu baxımdan Tədris teatrında repertuar tərtibi, seçilən əsərlərin yüksək bədii reallıqla tamaşaya hazırlanması olduqca çətin,

məsuliyyətli işdir. Ona görə də bu, yaradıcılıq prosesi ilə məşğul olan mütəxəssislərdən kompleks yanaşma tələb edir.

Tədris teatrının repertuarından danışılarkən çox vaxt kurs və buraxılış tamaşalarına diqqət yetirilir və teatr pedaqogikasından ötrü mühüm əhəmiyyət kəsb edən etüdlər nəzərdən qaçırılır. Düşünürük ki, bu yanaşma kökündən yanlışdır. Çünki teatr pedaqogikasında repertuar seçimi, məhz tələbələrin birinci kursda etüdlər üzrə tədris proqramının başa çatmasından sonra başlayır.

Etüddə təklif olunmuş vəziyyətin dəqiq işlənilməsi həyatı daha dərindən öyrənmək, faktları toplamaq və onları düzgün dəyərləndirmək ehtiyacını doğurur. Etüd üzərində iş üçün metodiki yollar fərqlidir. Ancaq nə qədər fərqlənsələr də bu yolların, üsulların məqsədi eynidir: tələbə-aktyor anlamalıdır ki, proses ancaq o vaxt canlı ola bilər ki, o "burada" və "indi" yaransın, hər dəfə şəraitdən və ünsiyyət zamanı meydana çıxan əks-əməldən asılı olaraq dəyişsin.

Tədris prosesində tələbə-aktyor dramaturji materialla düzgün münasibət qurmağı öyrənməlidir. Çox zaman tələbə-aktyorlar müəllif fikrini dəqiq anlamağa və bütün ifaçılıq qabiliyyətlərindən istifadə edərək onu tamaşaçılara dürüst şəkildə çatdırmağa çalışırlar. Ancaq müəllifə bu cür "kor-koranə sədaqət" göstərən zaman o, özünə, yaradıcı təbiətinə qarşı xəyanət etmiş olur. Təbii ki, müəllif mətninə sayğısız münasibət, volyuntarizm (obyektiv qanunların tələblərini inkar edərək, iradəyə üstünlük vermək) də yolverilməzdir. Tələbə-aktyor bu məsələdə "qızıl orta"nı tapmalı, müəllif fikrini çatdırmaqla yanaşı, dramaturqun ideyalarını bəyan edən rupora, şərhçiyə çevrilməməlidir.

ADMİU-nun Tədris teatrının repertuarından danışarkən qeyd olunmalıdır ki, yarandığı dövrdən (1962-ci il) bu günə qədər sözügedən teatr repertuarının tərtibi zamanı həm klassik dramaturgiya nümunələrinə, həm də müasir əsərlərə yer verməyə çalışılmışdır. Doğrudur, yaradıcılıq təcrübəsinə malik olmayan tələbə-aktyorlar, bir qayda olaraq, müasir əsərlərin səhnə təcəssümündə özlərini daha rahat hiss edirlər. Müasir dramaturgiyada qoyulan problemlər tələbə-aktyorlara daha yaxın olur və müasir personajları canlandırmaq tələbələrdən o qədər də geniş bilik, məlumat istəmir. Onlar öz müasirlərini, dostlarını, tanışlarını, hər

gün küçədə rastlaşdıqları, ünsiyyətdə olduqları insanlardan birini canlandırırlar. Təbii ki, tələbə-aktyor üçün belə tamaşalarda çıxış etmək daha rahat və daha əyləncəlidir. Ancaq tələbə-aktyorların yaradıcı fərd kimi yetişməsində klassik dramaturgiyanın mühüm rolu var.

Teatr aləmində qəbul olunmuş bu fikir danılmazdır: aktyor klassikada yetişir. Bu mənada, klassik əsərlər üzərində iş mühüm bədii nəticələrə nail olmağa imkan verir və tələbə-aktyorlara böyük yaradıcı və mənəvi-əxlaqi təcrübə qazandırır, onların dünyagörüşünü, həyata baxış bucağını genişləndirir. Belə rolların ifası zamanı qazanılmış təcrübə tələbə-aktyorun peşəkar bacarıq və vərdişlərinin yüksək səviyyəyə çatmasına zəmin yaradır. Klassik obrazların yaradılması prosesində tələbə-aktyorlar ifadə vasitələrinin geniş arsenalına yiyələnir ki, bu da onların gələcək peşəkar fəaliyyətləri üçün olduqca vacibdir.

Tamaşaya qoyulmaq üçün seçilmiş əsərlərin məcmusu kollektivin səviyyəsini, pedaqoqun tələbələrlə apardığı işin keyfiyyətini, teatr təhsilinin perspektivini, peşəkar kadr hazırlığının məqsədlərini göstərir. Repertuar seçimində pyeslərin və müəlliflərin adlarına yox, yaradıcı və pedoqoji məqsədlərə köklənmək lazımdır. Bu, teatr təhsili işində yaradıcı prosesin başlıca şərtlərindəndir.

ADMİU-nun Tədris teatrının repertuarına xas olan ümumi tendensiyalara misal olaraq, nisbi azadlıq, tələbə-aktyorların yaradıcı fərd kimi yetişməsi üçün klassik dramaturgiyaya müraciət, müasirliyə daha yaxın və daha adekvat olmaq istəyi, gənc dramaturqların pyeslərinin repertuara daxil edilməsi, dünya teatr məkanında yaranan yeni tendensiyaları sınaqdan keçirmək meylini göstərmək olar.

II fəslin **"ADMİU-nun Tədris teatrında yeni yaradıcılıq axtarışlarının istiqamətləri"** adlı ikinci paraqrafında çağdaş dövrün teatr təhsilinin bəzi problemləri araşdırılır, tarixi təcrübədən çıxış edilərək, ADMİU-nun Tədris teatrında yeni yaradıcılıq axtarışlarının istiqamətləri və perspektivləri müəyyənləşdirilir.

Bugünkü həyat tempi yeni teatr ideyalarını və teatr formalarını diktə etməkdədir. Teatr sənətinin mütəhərrik xarakteri, müasir teatr

prosesinin sürətlə dəyişməsi teatr təhsilinin də qarşısına tamamilə yeni və mürəkkəb vəzifələr qoyur.

Dünyada teatr sənətinin sürətli inkişafının müasir teatr təhsilinin qarşısına qoyduğu tələblərdən biri fənlərarası əlaqə ilə bağlıdır. Multidissiplinar yanaşma tədris prosesinə yeni məzmun qazandırır. Belə olduqda, tədris prosesi lazım olan bilik, bacarıq, vərdiş və təcrübəni əldə etmək vasitəsinə, vacib kompetentlik dərəcəsinə çatmaq məqsədi daşıyan fəaliyyətə çevrilir və beləliklə də bu teatr təhsilinin müasirləşdirilməsi şəraitində gələcəyin aktyor və rejissorlarının daha yaxşı yetişdirilməsini təmin edə bilər. Teatr təhsilinin modernizasiyası Tədris teatrının da qarşısına yeni tələblər və vəzifələr qoyur. Müasir teatr təhsilində Tədris teatrı tamam fərqli, çox mühüm yerlərdən birini tutur.

ADMİU-nun Tədris teatrı tələbə-aktyorların öz gələcək peşələrinin bütün çətinliklərini ilk dəfə dərk etdikləri yaradıcılıq laboratoriyası kimi, tələbənin yaradıcı fərdiyyətini inkişaf etdirmək cəhdləri, yeni özünüifadə forma və üsulları axtarışı ilə bağlıdır. Bu yaradıcılıq məkanında tələbə-aktyora dərin psixoloji qatlarda özünürealizə imkanları və vasitələri aşılanır. Tədris teatrının başlıca funksiyalarından biri tələbə-aktyor üçün çoxfunksiyalı psixofiziki sfera yaratmaq və onun daxili dünyasının inkişafı, formalaşdırılması üçün rəngarəng metodiki üsullardan istifadə etməklə bağlıdır.

Tələbə-aktyoru tamaşaçı ilə açıq ünsiyyətə hazırlamaq üçün Tədris teatrında prokat şəbəkəsinin (tamaşanın satılması ilə bağlı şəbəkə) yaradılması da mühüm əhəmiyyət kəsb edir. Çünki tamaşaçı ilə canlı, düzgün və səmərəli ünsiyyətin mexanizmlərinin qurulması bilavasitə tamaşanın hazırlanması və istehlakı prosesində mümkün ola bilər. Buna görə də müntəzəm prokat sistem-şəbəkəsinin qurulması Tədris teatrı üçün olduqca vacibdir.

1990-cı illərdə ADMİU-dakı humanitar təhsil aktyor hazırlığı prosesinin tərkib hissəsi kimi özünütəftiş, özünüidentifikasiya mərhələsi keçdi və aktyor hazırlığı prosesinə inteqrasiya olundu. Yəni, məsələn, kulturologiya, fəlsəfə, etika, estetika, təsviri sənət tarixi və nəzəriyyəsi, dram nəzəriyyəsi və s. fənlər əlahiddə xarakterini itirdi, ideoloji funksiyanın aradan qalxması ilə daha çox

ADMİU-nun tədris işinin əsas məqsədi olan sənətçi və şəxsiyyət yetişdirilməsi işinə xidmət etməyə başladı.

Dissertasiyanın **Nəticə** hissəsində əsas müddəalar ümumiləşdirilir və aşağıdakı qənaətlərə gəlinir:

- Azərbaycan Dövlət Teatr İnstitunun nəzdində zamanın tələbi ilə 1962-ci ildə Tədris teatrının yaradılması ümumittifaq miqyasda gedən proseslərə refleksiya idi. Tədqiqat obyekti kimi seçdiyimiz dövr Tədris teatrının, fikrimizcə daha məhsuldar yaradıcılıq axtarışları mərhələsini təşkil edir;
- ADMİU-nun Tədris teatrı yarım əsrdən artıq zaman ərzində öz yaradıcılıq üslubunda və səhnə estetikasında formalaşdırdığı ənənə ilə çağdaş estetik düşüncəyə əsaslanan avanqard forma və məzmun prinsipləri arasında körpü yaradıb;
- Tədris teatrının təşəkkülündə müxtəlif sənət ocaqlarında çalışmış peşəkar teatr ustadları, rejissor-pedaqoqlar Ədil İsgəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov, Ağəli Dadaşov, Rza Təhmasib, Nəsir Sadıqzadə, Ağakişi Kazımov, Cənnət Səlimova, Fikrət Sultanov, Azər Paşa Nemətov, Vaqif İbrahimoğlu, Oruc Qurbanov, Mehriban Ələkbərzdə, Firudin Məhərrəmov, Bəhram Osmanov, Fikrət Məlikov, Gümrah Ömər və başqa bu kimi sənətkarların böyük xidmətləri var;
- laboratoriya xüsusiyyətinə malik olan, ciddi təcrübi eksperimentlər aparan ADMİU-nun Tədris teatrı böyük səhnə üçün peşəkar kadr yetişdirilməsində səmərəli şəkildə fəaliyyət göstərir və sözün əsl mənasında tədris-auditoriya ilə peşəkar səhnə sənəti arasında möhkəm körpü sütunları funksiyasını yerinə yetirir;
- müasir bədii təhsilin qarşısında dayanan əsas vəzifələrdən biri mütərəqqi ənənələrlə avanqard meyillərin vəhdətinə əsaslanan, ənənənin və varisliyin üzərində bərqərar olan müasir teatr pedaqogikasını formalaşdırmaq, ənənə və novatorluğun dəqiq nisbətini təyin etməklə, ənənələrlə novator ideyaların vəhdətindən yaranan işlək metodika yaratmaqdır;
- Tədris teatrının inkişaf tarixinin ən önəmli mərhələsi, yeni janr-üslub axtarışlarına cəsarətlə meydan açdıqları bədii rəhbər Vaqif İbrahimoğlu və direktor İsrafil İsrafilovun teatra rəhbərik etdikləri 1979-1982-ci illərdir. Əsl səmərəli yaradıcılıq axtarışlarını və

uğurlarını təmin edən laboratoriya səviyyəsində fəaliyyət göstərdiyi həmin dövrdə ADMİU-nun Tədris teatrı yeni teatr tendensiyalarının aprobasiyadan keçdiyi təcrübə emalatxanasını xatırladan studiyaya, yeni-yeni teatr ideyalarının cəsarətlə sınaqdan çıxarıldığı təcrübə meydanına çevrilib;

- geniş mənada Azərbaycanın teatr həyatında durğunluqlar, yeni üslub-formaların çox az nəzərə çarpdığı bir dövrdə Vaqif İbrahimoğlunun ADMİU-nun Tədris teatrında hazırladığı "Zəncirbənd", "Var olsun günəş!", "Diqqət, başlayıram!", "Yaylağa gedir", "Mən Dədə Qorqud", "Təskinlik verməyi unutmayın", "Komsomol", "Məcnun demə..." tamaşaları Tədris teatrının tarixinin daha parlaq, daha səmərəli nəticələr verən axtarışlar səhifələrini təşkil edir;

- ADMİU-nun Tədris teatrının repertuarının formalaşmasında qarşıya qoyulan və uğurla həyata keçirilib reallaşdırılan başlıca məqsəd tələbələrin yaradıcıq fərdiyyətinin, aktyorluq bacarığının üzə çıxarılması və onların kollektiv yaradıcılıq vərdişlərinə yiyələnmələrinin təşkilidir;

- Tədris teatrının məqsədyönlü, proqram səviyyəli fəaliyyət prinsipləri göstərir ki, tələbə-aktyorların yaradıcı fərd kimi yetişməsində, onlara böyük yaradıcılıq təcrübəsi qazandıran, vacib peşəkarlıq vərdişləri aşılayan və mənəvi-əxlaqi dəyərlərə baxışlarını, dünyagörüşlərini formalaşdıran, mürəkkəb həyat hadisələrinə estetik baxış bucağını genişləndirən klassik dramaturgiyanın mühüm rolu vardır;

- araşdırmada bir daha o qənaətə gəlinmişdir ki, zamanın iti ritminin, dünyada teatr sənətinin sürətli inkişafının müasir teatr təhsilinin qarşısına qoyduğu tələblərdən biri multidissiplinar yanaşma ilə bağlıdır və bu işdə Tədris teatrının tələbə-aktyorlara aşıladığı yaradıcılıq töhfələri inkaredilməzdir;

- Tədris teatrı tələbə-aktyorların təhsil prosesində mənimsədikləri bilik, daxili bacarıq və peşəkarlığa yiyələnmə cəhdlərini sanki istedad süzgəcindən keçirən, öz istedadlarını yaradıcılığa tətbiq etməyin başlıca prinsiplərinin incəliklərini öyrədən böyük bir məktəbdir;

- Tədris teatrı tələbələrin “bilmək” fazasından “bacarmaq”, nəzəriyyə mərhələsindən tətbiqi peşəkarlığa keçid fazasını reallaşdıran təcrübə meydanıdır;

- tələbə-aktyoru tamaşaçı ilə açıq ünsiyyətə, səhnə və tamaşaçı salonu arasında ünsiyyət yaratmağa hazırlamaq üçün Tədris teatrında prokat sistem-şəbəkəsinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Tədris teatrının çoxillik təcrübəsi bir daha göstərir ki, tamaşaçı ilə canlı, düzgün və səmərəli ünsiyyətin mexanizmlərinin qurulması bilavasitə tamaşanın hazırlanması və istehlakı prosesində mümkün ola bilər;

- ADMİU-nun Teatr sənəti fakültəsinin və bu fakültənin kafedralarında çalışan pedaqoq-sənətkarların Tədris teatrının inkişafında misilsiz rolu var. Onların tədris metodikası və rəhbərlik etdikləri, sənət müəllimləri olduqları kursların istər semestr imtahanları, istərsə də buraxılış tamaşaları Tədris teatrının repertuarının əsasını təşkil edir;

- gəldiyimiz çox mühüm və səmərəli qənaət ondan ibarətdir ki, bu tədqiqat işi ADMİU-nun Tədris teatrı haqqında ilk tədqiqat olaraq, gələcəkdə bu mövzuda daha geniş araşdırmalar aparmaq üçün əsaslı elmi-nəzəri zəmin yaradır.

## Dissertasiyanın əsas məzmunu aşağıdakı elmi işlərdə öz əksini tapmışdır:


1. Teatr pedaqogikasında istedad və intellekt amillərinin nisbəti // – Bakı: Musiqi dünyası, – 2017. № 4/73, – s.59-61.
2. Tədris teatrı müasir teatr təhsilinin yeni tələb və şərtləri müstəvisində // – Bakı: Mədəniyyət dünyası, – 2017. № 34, – s.77-83.
3. Çağdaş teatr təhsili: problemlər, pespektivlər // – Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin “Elmi əsərlər”i, – 2017. № 24, – s.107-111.
4. Teatr təhsilində ənənə və novatorluq məsələləri // – Баку: Harmony международный музыкалный культуролочиский онлайн журнал, – URL: http://harmony.musigi-dunya.az/RUS/ reader.asp?s= 1&txtid=720

5. Традиции школ в современном театральном образовании. Пятигорский государственный университет // Материалы VII Международный научно-практической конференции “Научные исследование в сфере гуманитарных наук: открытия XXI века”,– Пятигорск: 3-4 октября, – 2018, – с. 96-100.

6. Современное театральное образование: компетентный подход // Материалы Международной дистанционной научной конференции “Театр онлайн”, – 11 мая, – 2020, – с. 67-69.

7. Adil İsgəndərovun teatr pedaqogikası// Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş XXVI multidissiplinar Respublika elmi-praktik konfransının materialları, – Bakı: 15 may, – 2021, – s.353-354.

8. Учебный Театр Азербайджанского Государственного Университета Культуры и Искусств как Вариант Лаборатории// – İstanbul: Mecmua, – 2021. №11, – s.221-229.

9. Theater education and traditions // Proceedings of the conference International Scientific and Practical Conference, Cutting Edge-Scince. 2023 Shawnee, USA: – January-March 2023, p.28-29.

Dissertasiyanın müdafiəsi 25 İyun 2024-cü il tarixində saat 12 00 Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.35 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1065, İnşaatçılar prospekti, 39.

Dissertasiya ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kitabxana-informasiya mərkəzində tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 24 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:________2024
Kağızın formatı: A5
Həcm:43044 işarə
Tiraj: 100